DOI: https://doi.org/10.36719/2663-4619/112/74-77

**Leyla İbrahimova**
Gəncə Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0002-5209-8452
ibrahimvaleyla@gmail.com

# Əhmәd Cavad yaradıcılığında Novruzla bağlı xatırlamalar

**Xülasə**

Bildiyimiz kimi, folklor hər bir xalqın düşüncə tərzini inam və inanc sistemini özündə əks etdirən incəsənətdir mədəniyyətdir. Hər bir xalq milli kimyini özündə əks etdirən folklor və etnoqrafiyaya sahibdir. Dünya ədəbiyyatı ədibləri kimi Azərbaycanın Cümhuriyyət nəğməkarı Əhməd Cavad da öz əsərlərində mənsub olduğu xalqın milli adət-ənənələrin,i inanclarını, rituallarını təsvir etmişdir. Bu məqalədə müəliffin bütövlükdə folklor ədəbiyyatı əsasında yazılan əsərlərindən yaz fəsli və Novruz bayramı adətlərini özündə əks etdirən lirik parçaları təhlil edilmişdir. Müəllifin əsərlərinin etnoqrafik cəhətdən dəyərli mənbə olması əsaslandırılmışdır. Təbiət simvolları folklor və etnoqrafik cəhətdən araşdırılmışdır.

***Açar sözlər:*** *Novruz, folklor, təbiət, od, su, torpaq*

**Leyla Ibrahimova**
Ganja State University
Master student
https://orcid.org/0009-0002-5209-8452
ibrahimvaleyla@gmail.com

# Memories of Novruz in the Works of Ahmad Javad

**Abstract**

As we know, folklore is an art form and a cultural expression that reflects a nation’s way of thinking, belief systems, and worldview. Every nation possesses its own folklore and ethnographic heritage that embodies its national identity. Like the great figures of world literature, Azerbaijan’s “Poet of the Republic,” Ahmad Javad, also portrayed the national traditions, beliefs, and rituals of his people in his works. This article analyzes lyrical excerpts from his writings that reflect springtime and Novruz holiday traditions, based on the broader context of folklore literature. The article substantiates the value of the author’s works as significant ethnographic sources. Symbols of nature are examined from both folkloric and ethnographic perspectives.

***Keywords:*** *Novruz, folklore, nature, fire, water, earth*

## Giriş

Novruz bayramı Azərbaycan xalqının minillik, əsrlərin sınağından çıxmış milli bayramıdır. Yaxın Şərqdə bir çox xalqlar tərəfindən böyük təntənə ilə qeyd edilən Novruz özündə yazın gəlişi və təbiətin oyanışını əks etdirir. Təbii bir haldır ki, folklorumuzun əhəmiyyətli bir hissəsini əhatə edən bu bayram yazılı ədəbiyyatımızda da bir çox ədiblərimizin diqqətini çəkmiş və Novruz bayramı haqqında əsərlər yaranmışdır. Yaradıcılığında bu mövzuya yer vermiş ustad sənətkarlardan biri də Əhməd Cavaddır. Məhz onun lirikasında bu mövzu özünəməxsus ahəng tapmışdır. “Çillə şərqisi”, “Yaza xitab”, “Böyük çillə”, “Kiçik çillə”, “Xıdır Nəbi”, “Boz ay”, “Dörd çərşənbə” “Qarının borcu” “Dördatlı yenicə gün” “Yel Baba” (“Birinci çərşənbə”, “İkinci çərşənbə”, “Üçüncü çərşənbə”, “Dördüncü çərşənbə”) adlı şeirləri Ə.Cavadın Novruz bayramına həsr edilmiş milli təfəkkür tərzini və xalq etnoqrafiyasını birləşdirən əsərləridir. Bu əsərlər müəllif tərəfindən ciddi araşdırmalar nəticəsində qələmə alınmışdır (Cavad Əhməd, 2022).


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

**Tədqiqat**

Bildiyimiz kimi, yazın gəlişi ilə əlaqədar olaraq çillələr və çərşənbələr anlayışları var. Qış fəslinin başlaması ilə bağlı təqvimimizdə qədim dövrlərdən etibarən Böyük çillə, Kiçik çillə, Boz ay anlayışları və bu anlayışlarla birbaşa əlaqəli xüsusi günlər var. Xalqımız qış fəslinin başlanğıcından, yəni 22 dekabrdan 1 fevrala qədərki müddəti 40 günü Böyük çillə, 1 fevraldan 20 fevraladək olan zaman kəsimini Kiçik çillə adlandırmışdır. Daha sonra dörd çərşənbədən ibarət olan Boz ay başlayır. Qeyd edək ki, fərqli ədəbiyyatlarda göstərdiyimiz tarixlər bir-iki gün fərqlə müxtəlif tarixləri göstərə bilər. Çox səthi şəkildə vurğuladığımız bu xalq inancları günümüzdə hələ də qalmaqdadır (Cavad Əhməd, 2012). İndi isə bu nümunələrin təhlilinə diqqət edək. “Çillə şərqisi”nin birinci bəndində çillədən sonra yazın gəldiyini, çillənin ömrünün az olduğunu, yerə qar yağsa belə, ancaq nəticədə bahara təslim olacağını bildirir. İkinci bənddə qışı ağ bayraqlı, yazı isə al bayraqlı adlandıran şair qışın gedişi ilə nağılçılarında getdiyini, yazın gəlişi ilə isə ozanın, aşığın, sazın gəldiyini söyləyir. Üçüncü bənddə kiçik çillə gəlmədən, böyük çillə hələ çıxmamış, artıq boz ayın qışı tanıdığına görə öz əlamətlərini göstərdiyi təsvir olunur. Həmçinin bu lirik parçalarda təbiət təsvirləri vasitəsilə şəxsləndirmədən istifadə edilib. Dördüncü bənddə artıq bənövşələrin açıldığından, çobanın sürüsünü otlağa çıxarmasından bəhs edir. Sonuncu bənddə isə yağışın ruzi gətirməsi, Novruzun gəlib özünü çatdırması, təbiətin oyanması, insanların təbiətə, yollara çıxması, bülbülün, gülün simasında canlıların canlanması, şaxtanın, boranın sovuşması, yerin artıq yaza qovuşması böyük sənətkarlıqla təsvir olunub (Qasımova, 2013).

“Böyük çillə” şeirində müəllif onun payızın davamı olaraq ömrünün qırx gün olduğunu və uzun qış çağı olmasını vurğulayır. Böyük çillədə artıq asta-asta qar yağdığını və qarın sanki insanlara, xüsusən də, dosta-tanışa gülümsədiyini, heç kəsi darıxdırmadığını, qışın gəlişini isə quyudan gələn səsə bənzətdiyini təsvir edib. Qarın yeri örtməsi, elə bil ki torpağın üstünə çəkilən yorğana bənzəyir. Təbiət qarla örtülərkən qarğaların dəstə-dəstə yerə qonması, qarğanın qarla qohumluğu varmış kimi sanki qarğanın dimdiyində ilk qarı gətirməsi kimi təqdim edilib. Ağacdan tökülən yarpaqları qarğanın dimdiyi ilə tökməsi, qarğanın yeməyinin qurd-quş olması göstərilir. Elə bil ki qarğaya “qar-qar” deməyi qış öyrədibmiş kimi metafor işlənib. Şair ağ qarın üstündəki qarğaları gah çox qeyri-adi görür, gah da qara xal və ya ağ libasdakı düymələrə bənzədir. Və qarğaların qarıldamasını, çayların buzun altında axmasını çillənin sonunun gəlməsinə yozur (Hacıyeva, 2009).

“Kiçik çillə” şeirində böyük çilləni böyük qardaşa, kiçik çilləni də kiçik qardaşa bənzədən Ə.Cavad böyük çillə gedəndən dərhal sonra kiçik çillənin öz gəlişi ilə böyük tufan gətirdiyini, beləliklə də, şaxtanın tufan etdiyini, soyuğun və güclü küləyin təsirindən kolların yerə sərildiyini, ağacların budaqlarının əyildiyini, pişiklərin də bəzi gecələr səhərə qədər miyoldadığını böyük bədii dillə təsvir etmişdir. Bəzi gecələr o qədər şiddətli soyuq olur ki, səhər açılanda artıq hər tərəfi duman, çən bürümüş vəziyyətdə olur. Lirik parçanın elə bu hissəsində ocaqların bərk qalanaraq hədik bişirmək adətinin icra edildiyi məqamına toxunulur. Soyuq havanın təsirindən qapıların şişməsi, evin, otaqların öz-özünə soyuması kiçik qardaşın, yəni kiçik çillənin böyük çillədən yüz dəfə daha zalımlığı ilə əlaqələndirilir. Nəticədə də öz ömrünü böyük çillədən iki dəfə daha tez başa vurur. Cəmi 26 sətirdən ibarət olan bu kiçik şeir parçasında şair, demək olar ki, kiçik çillənin bütün xüsusiyyətlərinə və onun mövcudluğu müddətində icra edilən adətlərə toxunub (Şamil Əli, 2011).

Ə.Cavad Novruz bayramı haqqında olan “Dördatlı yenicə gün” şeirində qışdan yaza keçid edilən gündən bəhs edir. Burada göstərilir ki, Yenicə günün dörd atı var və o, odürəkli, yelqanadlı halı ilə həmin dörd atını dördnala çaparaq gəlir. Yenicə gün öz gəlişi ilə sazağı, soyuğu qovaraq öldürür. Bağı, qoruğu yaşıl xalıtək bəzəyir. Nazik çubuqla, otlar, yeni əkilmiş bitkilər onun sayəsində boy atıb uzanır. Yenicə gün özüdə çətin günlərdən, yorucu yollardan gəlir. Lakin torpağa çatanda aramlaşır, dinclik tapır. Qarlı qışı arxada qoyması, öndə isə güllü yazın olması, bənövşələrin yetişməsi onu sevindirir. Həmçinin bu nümunədə şair torpaqlarımızı dəyərli cövhər adlandırır. Nərgizlər qarın, buzun altından boylanır. Göydəki ulduzlar yerin bu halına həsrət çəkir. Yenicə gün də bu xoşbəxtlik bəxş edən hadisələri görüb uşaq gözləri ilə gülür. Haqqında danışdığımız şeir nümunəsinin məzmunundan da görünür ki, burada müəllif güclü obrazlaşdırmadan yararlanıb. Əsərdə metafora, təşbeh, istiarədən geniş istifadə dairəsinə sahibdir (Fuad Esmira, 2023).

Folklor ədəbiyyatında Xıdır Nəbi Novruzun ilk müjdəçilərindən hesab olunur. “Xıdır Nəbi” şeirində Xıdır Nəbinin kiçik çilləni, yəni az ömürlü çilləni bölməsi bununla da, ona bir sillə vurulubmuş kimi cəzalandırıldığı göstərilir. Xıdır Nəbi kiçik çilləyə qonaq olduğunu, qonağın isə belə davranmadığını deyir. Bu gedişlə ağacların, meşələrin qırılacağını, yamacların boş qalacağını, insanların da işləri üçün evdən çıxmalı olduqlarını bildirərək artıq çillənin getməli olduğunu deyir. Burada şair işin, çalışmağın, fəaliyyətdə olmağın həm insanın öz həyatında, həm də ətrafındakı digər bütün canlılar üçün faydalı olmasını vurğulayır. Əlavə olaraq müəllif bu əsərlə “keçmişdəki davranışlarımız bugünkü bizi formalaşdırdığı kimi, gələcəkdəki şəxsiyyətimizin də arzu etdiyimiz kimi olmasını istəyiriksə, hazırkı davranışlarımızın məsuliyyətini üstümüzə almalıyıq” baxışını oxucuya təlqin etmişdir. Çünki heç bir uğur boşluğun, fəaliyyətsizliyin nəticəsi deyil. Çalışmaq həyatdır və insanı həyatda tutan ən vacib yaşam ehtiyaclarından biridir. Elə məhz burada bildirmək istəyirik ki, həm folklorda, həm də Ə.Cavad yaradıcılığında dəfələrlə toxunulan bu mövzu haqqında müasir araşdırmalar təsdiqləyib ki, çalışan, işləyən insanlar işsiz insanlardan daha az depressiv hallar yaşayırlar. Hətta maddi ehtiyacı tam təmin olunmuş şəxslərin belə fəaliyyətsiz qaldıqda stress və depressiya ilə üzləşmək riskləri yüksəkdir. Çalışmaq insanın həm də mənəvi ehtiyacıdır. Faydalı olmaq, başqalarına yardım edə bilmək insanın özünü xoşbəxt hiss etməsinə təsir edən faktorlardandır. Və hər nə qədər disiplinsiz insan olsa belə, çalışdığı, fəaliyyətdə olduğu müddətdə istər-istəməz müəyyən rejimə əməl etməli olur. Son araşdırmalarda da disiplinli, qaydalı həyat tərzi yaşayan şəxslərin özlərini daha xoşbəxt hiss etmələri, günlərinin daha məhsuldar keçməsi təsdiqlənib (“Kitabi Dədə Qorqud”, 2016).

Folklora az-çox bələd olan hər bir kəsə yaxşı məlumdur ki, boz ayla bağlı bəzi xalq ədəbiyyatı nümunələri var ki, onlarda boz ay dəyişkən xarakterli, simvolikləşdirilmiş obraz kimi iştirak edir. Ə.Cavad da “Boz ay” lirik parçasında bunu xalq ədəbiyyatının mükəmməl bilicisi olaraq professional dəqiqliklə təsvir etmişdir. Bu şeirin məzmununda şair havanı poetik dillə gah qızarıb, gah bozarmasını, gah günəşin çıxması, gah da günəşin batması, hava şəratinin gah yaz, gah da qış kimi keçməsini təsvir edib. Qeyd edilən məqamlar boz ayın əsas xarekterik cəhəti kimi səciyyələndirilir. Bu zaman kəsiyində şehlərin qırova dönüb qırov halında yer üzünə səpələnir, tez-tez yağış yağır, quşlar yuvalarını ağaclarda tikməyə başlayır, bununla da köhnə ovlaqlarına qayıdırlar. Hər kəs yaza hazırlaşır, durnalar köhnə yurdlarına köçməyə başlayırlar, sığırçınlar da digər quşlartək qaqqıldaşırlar, artıq bülbüllər də qoruqlarda öz nəğmələrini tez-tez oxuyurlar, arılar bal toplamağa hazırlaşırlar. Boz ay qışdan sonra yazın gəlməsi üçün yeni yollar açır. Xalq yazın gəlişinə çox sevinir, sanki hamı məhz bu anı gözləyirmiş. Ədib göstərir ki, boz ay nə qədər sərt olsa da, mərhəməti əksik deyil (Dünyaminqızı Qərənfil, 2024).

Ə.Cavad lirikasında özünəməxsus yerə sahib olan Novruz bayramına həsr olunmuş şeirlərdən onun “çərşənbələr” haqqında əsərlərini xüsusən qeyd etməliyik. Müəllifin “Birinci çərşənbə” şeiri Novruzun dörd çərşənbəsindən olan yel çərşənbəsi haqqındadır. Burada havanın mülayimləşməsi qışın öz yerini yaza verməsi təbiətin oyanması poetrik bir dillə təsvir olunan bu əsər sözlə çəkilmiş ecazkar təbiət mənzərəsinə bənzəyir.

Ədibin “İkinci çərşənbə” əsəri su çərşənbəsi haqqında olub oxucuya suyun həyatın mövcudluğu və davamlılığı üçün ən vacib faktor olduğunu xatırladır. Burada müəllifin təbiət hadisələrini incə detallarla təsvir etməsi, bunu su çərşənbəsi ilə əlaqələndirməsi diqqət çəkir. Bizcə, Ə.Cavad bunu qədim türk inanc sistemində suya məxsusi dəyər verilməsi, eyni zamanda, qədim Göytürk kitabələrində, əski türk dastanlarında istifadə olunması ilə də birbaşa əlaqəli olub. Məsələn, Kitabi Dədə Qorqud dastanında “axan suyun qurumasın” kimi suyun müsbət mənada təqdim olunduğu onlarla nümunəyə rast gəlirik (Dünyaminqızı Qərənfil, 2024).

Ə.Cavadın “Üçüncü çərşənbə” şeiri torpaq çərşənbəsi haqqında olub burada yazın gəlişi ilə əlaqədar olaraq torpağın oyanması, təbiətdə yaşıllığın baş qaldırması ustalıqla təsvir olunmuşdur. Əsərdə təbiətin oyanış simvolunun səməni olması göstərilib. Təbiət bədii bir dillə danışdırılıb. Torpaq qədim türk xalqlarında vətənin simvolu sayılaraq müqəddəs hesab olunmuş, həm maddi, həm də mənəvi mənalar daşımışdır. Türk xalqlarının etnoqrafiyası haqqında olan araşdırmalarda torpağın şamanizmdə ruhlarla əlaqə yaratmaq vasitəsi, habelə yeraltı və yerüstü dünyaları bir-birində ayıran vasitə kimi mənaları ilə də qarşılaşırıq.

"Dördüncü çərşənbə" şeiri od çərşənbəsi haqqındadır. Od folklorda, xüsusən zərdüştilikdə ruhaniyyətin rəmzi hesab edilmiş, onun müqəddəs yaradıcı qüvvə olduğuna inanılmışdır. Folklor ədəbiyyatında diqqət etdikdə odun təmizləmə qüvvəsinə inanıldığını müəyyən edə bilərik. Bu əsərdə müəllif od çərşənbəsinin ən özəl mərasimini, yəni tonqal qalanması, tonqalın üstündən tullanmaq rituallarını xatırlamışdır. Qeyd edək ki, bu adət neqativ enerjilərdən qorunmaq və təmizlənmək mənalarını daşımış və Novruz bayramının əsas atributlarından hesab edilmişdir (Nəcəf Əkbər, 2015).

## Nəticə

Cümhuriyyət nəğməkarı, istiqlal şairi kimi anılan Əhməd Cavad yaradıcılığını tədqiq etdikcə onun təfəkkür tərzinin və həyat amalının xalqına, vətəninə, millətinə sədaqət və sevgiyə əsaslandığını müşahidə edirik. Ədib milli ideallarını təkcə istiqlal motivli deyil, həmçinin digər mövzulu əsərlərində də göstərmişdir. Onun bəzi əsərləri sırf folklor ədəbiyyatına əsaslanansa da, elə yaradıcılıq nümunələri də var ki, foklor motivli olmasa da, lakin o əsərlərdə folklor motivlərini müşahidə edirik. Ə.Cavadın Novruz bayramı haqqında olan əsərləri bütünlüklə folklor və etnoqrafiyaya əsaslanaraq, 5000 ildən çox tarixi olan Novruz bayramının qədim köklərinə işarə edərək gerçək xalq həyatı ilə əlaqəli şəkildə təqdim edilmişdir.

## Ədəbiyyat

1. Cavad Əhməd. (2022). "Seçmə şeirlər". Bakı: "Qanun", 336.
2. Cavad Əhməd. (2012). "Sən olasan gülüstan". Bakı: "Təhsil", 190.
3. Fuad Esmira. (2023, mart 11). "Folklor xalq həyatının əks-sədasıdır". "Respublika", 10.
4. Qasımova, F. (2013, mart 5). "Əhməd Cavad lirikasında Novruz", "Azad Azərbaycan", 7.
5. Dünyaminqızı Qərənfil. (2024). "Füyuzatçılar". Bakı: "Mimta", 188.
6. Hacıyeva, M. (2009). "Folklor və təsəvvüf ədəbiyyatı sözlüyü". Bakı: "Nurlan", 330.
7. Şamil Əli. (2011). "Uyğur, Qaqauz, Quzey Qafqaz türklərinin folkloru və ədəbiyyatı". Bakı: "Nurlan", 411.
8. "Kitabi Dədə Qorqud". (2016). Bakı: "Teas Press", 404 s.
9. Nəcəf Əkbər. (2015). "Hun minilliyi". Bakı: "Teas Press", 460.